Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2022, **s. 53-57**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2022, **с. 53-57**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2022, **pp. 53-57**

**UOT 78:371**

**Arifə Hacıbaba qızı Qəribova,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
*E-mail:qaribova.arifa@gmail.com*

# XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİNDƏ SOLFECİO FƏNNİNİN MÜASİR TƏDRİS ÜSULLARI

***Açar sözlər:*** *solfecio, metodika, tədris, musiqiçi*

Məqalədə müxtəlif ölkələrdə solfecio fənnninin müasir tədrisi metodikaları və onların uğurla tətbiqi, xarici ölkələrin qabaqcıl təcrübəsi araşdırılır. Çoxillik pedaqoji təcrübəmizə əsaslanaraq, Azərbaycanın musiqi təhsili sahəsində bu metodikaların tətbiqi imkanları təhlil olunur.

**А.Г.Гарибова**

# СОВРЕМЕННЫЕ МЕТОДЫ ОБУЧЕНИЯ ПРЕДМЕТА СОЛЬФЕДЖИО НА ОПЫТЕ ЗАРУБЕЖНЫХ СТРАН

***Ключевые слова:*** *сольфеджио, методика, преподавание, музыкант*

В данной статье были рассмотрены современные методики преподавания сольфеджио и передовой опыт их применения в различных странах. На основе нашего многолетнего педагогического опыта анализируются возможности применения этих методик в сфере музыкального образования в Азербайджане.

**A.H.Garibova**

# MODERN METHODS OF TEACHING THE SUBJECT OF SOLFEGGIO IN THE EXPERIENCE OF FOREIGN COUNTRIES

***Key words:*** *solfeggio, methodology, teaching, musician*

In this article, modern methods of teaching solfeggio and the best practices of their application in various countries were considered. Based on our many years of pedagogical experience, the possibilities of applying these methods in the field of music education in Azerbaijan are analyzed.

XXI əsrdə solfecio tədrisinin əsas suallarından biri belədir: fənnin mahiyyətini sadələşdirmədən, solfecionu yeni nəsil tələbələr üçün necə cəlbedici etmək və necə ona tələbatı artırmaq olar.

Birbaşa musiqi eşitmə qabiliyyətinin hərtərəfli inkişafına yönəlmiş solfecionun iki məqsədi var:

1) peşəkar – yüksək səviyyəli musiqiçi-ifaçı yetişdirmək:

2) sosial – fəal dinləyici və musiqisevər yetişdirmək.

Solfecio bir neçə tamamilə müstəqil, lakin bir-biri ilə əlaqəli vəzifələri əhatə edən çoxsahəli bir fənndir:

- eşitmə qabiliyyətinin tərbiyəsi;
- oxuma bacarıqlarının inkişafı;
- musiqi nəzəriyyəsinin mənimsənilməsi;
- musiqi dili vasitələrin inkişafı;
- musiqi təfəkküründün inkişafı.

Bununla belə, solfecio tədrisində problemlər də mövcuddur: konsert praktikası ehtiyaclarından təcrid olunma və "quru" nəzəriyyələşdirməyə həddindən artıq meyl. Söhbət mahiyyət etibarı ilə bütün musiqi gələcəyimizin əsas məsələsindən gedir. Problemin kökündə uşaqların tərbiyəsi və təhsili üçün effektiv yanaşmanın tapılması dayanır. Böhrandan çıxmaq üçün aşağıdakılara əsalanmaq lazımdır:

a) Şagirdlərin sinifdə və evdə yaradıcılıq işinin rolunu artırmaq (improvizasiyalar və kompozisiyalar).

b) Solfecionun tədrisi metodikasını psixologiyanın müasir nailiyyətləri əsasında inkişaf etdirmək.

c) XXI əsrin müasir musiqisi, o cümlədən folklor, caz və populyar musiqi də daxil olmaqla, fənnin musiqi bazasında islahatlar aparmaq.

ç) İfaçının konkret spesifikasını nəzərə almaqla solfecionu müasir konsert təcrübəsinə yaxınlaşdırmaq.

d) Texniki tədris vasitələrindən – sintezatordan, müasir hacetlərdən, CD-disklərdən, kompüter proqramlarından fəal istifadə etmək.

Solfecio, şübhəsiz ki, musiqi-nəzəri blokunun tətbiqi fənni olaraq qalacaqdır. Lakin yeni dövr ondan tələb edir ki, çoxtərəfli şəkildə tətbiq oluna bilsin. Solfecio dərsinə gələn hər bir şagird başa düşməlidir ki, məhz bu dərslərdə o, diqqəti tez cəmləşdirmək vərdişlərinə yiyələnəcək, yaddaşını və assosiativ bazasını inkişaf etdirəcək. Yəni, peşəkar musiqiçi olub-olmamasından asılı olmayaraq, o, gələcək fəaliyyətinin müxtəlif sahələrində faydalı ola biləcək keyfiyyətlərə sahib ola biləcək. Bunun üçün XXI əsrdə solfecio elə tədris olunmalıdır ki, öyrənələri bu fənnin həqiqətən heyrətamiz imkanlarına inandırsın.

Qeyd etməliyik ki, xarici ölkələrdə solfecio fənninin innovasiyalı metodlar ilə tədrisi sahəsində böyük təcrübə toplanmışdır. Bu təcrübəni

öyrənib, təhlil edib, bizim musiqi təhsili sahəsində tətbiq etməyi çox vacib və zəruri hesab edirik.

Son illərdə bir çox təhsil multimedia proqramları meydana çıxdı. Məsələn, amerikalı Helen Haynerin "Soft Way to Mozart" (Motsarta doğru yumşaq yol) proqramı. Bu proqramın əsas xüsusiyyətləri bunlardır:

1. "Əlifba Not yazılışı"nın ixtirası – elə bir not yazılışıdır ki, iki yaşından başlayaraq hər bir uşaq başa düşə bilər.

2. "Fortepianno dillərinin xəritəsi"nin ixtirası ki, hər bir insana erkən məktəbəqədər yaşdan alət vasitəsilə musiqi savadını öyrədən rəqəmsal fortepianonu "musiqi müəllimi"nə çevirən bir vasitə.

3. Pianoda çalmanın öyrənməsini yüksək interaktiv edən yeni nəsil proqram təminatının ixtirası.

Yaponiyada solfecionun tədrisində istifadə olunan məşhur Sudzuki sistemi böyük maraq doğurur. Üç yaşında uşaqlar adətən "tək kanallı" olurlar. Onlar yalnız bir nəfəri dinləyə qadirdir və "əvvəlki kanala" qayıtmaqda çətinlik çəkərək dərhal diqqətlərini yayındıra bilirlər. Sudzuki sisteminə görə, müəllim uşağı çoxkanallı qavrayışa həvəsləndirir. Bununla yanaşı, beynin hər iki yarımkürəsinin aktiv inkişafı baş verir.

Tanınmış rusiyalı novator-pedaqoqu Qriqori Şatkovski özünün "Musiqi eşitmə qabiliyyətinin inkişafı" adlı müəllif metodikasında üçlüyün metodoloji prinsipinə əsaslanır: BİLMƏK + EŞİTMƏK = HƏRƏKƏT ETMƏK (yəni çalmaq, oxumaq, bəstələmək, improvizə etmək, imla yazmaq, eşitmə qabiliyyəti vasitəsilə təhlil etmək və s.). Sankt-Peterburq bəstəkarları və müəllimləri O.Bulaeva və O.Getalova musiqi savadını dərk etməyə başlayan uşaqların yaradıcı inkişafına kömək edən bəstə və improvizasiya ilə bağlı bir sıra maraqlı dərs vəsaitləri buraxmışdılar. Bu vəsaitdən istifadə etmək rahatdır, çünki o, həm yaradıcı dəftər, həm də dərhal praktikada (alət üzərində) təsbit edilən zəruri nəzəri bilikləri ehtiva edən dərs vəsitidir. Öyrənənə fərdi yanaşma müəllimin mülahizəsinə uyğun olaraq qəbul edilir.

Bizim orta və ali məktəblərdə də bu metodikanı uğurla tətbiq etmək olar. Məsələn, beşinci dəftər şagirdləri "qızıl sekvemsiya" əsasında improvizə etməyə, birinci dərəcəli qohumluq tonallıqlarında modulyasiyadan istifadə edərək mahnı bəstələməyi öyrətməyə və yeni "harmonik boyalarla" tanış etməyə imkan verir. Akkordların hərfi adları aydın şəkildə izah olunur və tələbə onlardan istifadə edərək müxtəlif fakturalı müşayiət variantları ilə mahnıları ifa etməyi öyrənə bilər.

Bəzi pedaqoqlar melodiyanın semantik təhlili və əsərin intonasiya ssenarisinin yaradılması əsasında uşaqlarda musiqi təfəkküründün əsaslarının formalaşması perspektivlərini görürlər. Digər tədqiqatların əsasına musiqi-yaradıcılıq tərbiyəsi əsasında ümumi qabiliyyətlərin inkişaf etdirilməsi sistemi qoyulmuşdur. Bu konsepsiya musiqi mifləri-nağılları əsasında qurulmuşdur ki,

burada hər yaşda olan uşaqlara (bağçadan məktəbə qədər) musiqi savadı, musiqi nəzəriyyəsi, harmoniya və solfecionun əsas anlayışları, eləcə də bütün musiqi terminologiyası uşaqlar üçün anlaşıqlı və başa düşülən formada verilir. Bizim pedaqoqlar da bu metodikalardan bəhrələnə bilərlər solfecio və nəzəriyyə fənlərinin tədrisində.

Sonda digər bir innovasiyalı sistem "Beletskinin xromatik düzümü" barəsində demək istərdik. Bu sistem musiqi səslərini 12-hecalı adlandırılması sistemdir. O, həmçinin təlimdən əvvəl qeyd olunan dövrdə yüksək effektivliyə və istifadə rahatlığına malikdir və aşağıdakı bacarıqları formalaşdırır:

- "Beletskinin xromatik düzümü"-nün heca sistemində musiqi yazmaq və oxumaq bacarığı;
- 12 lad-tonallıqlara melodiyaların transpozisiyası bacarığı;
- ən sadə mahnı müşayiətinin istənilən fortepiano pilləsindən iki əllə ifası bacarığı;
- səs düzümü, intervallar və akkordlar arasında sərbəst hərəkət etmək imkanı;
- anlayışların mənimsənilməsi, yazıda və piano klaviaturası üzərində və s.

ABŞ və Kanadada Caz solfecionun metodikası da böyük maraq doğurur. Həmçinin maraqlıdır ki, Fransada solfecio həftədə 2 saat (kiçiklər üçün) və 4 saat (böyüklər üçün) keçirilir.

Xarici ölkələrdə son illərin didaktik və tədris ədəbiyyatı üç, beş və hətta bir yaşlı uşaqlar üçün rəngarəng və maraqlı solfecio dərslikləri ilə zəngindir. Bunlar oyun dərsləri, musiqi əlifbaları, musiqi nəzəriyyəsi üzrə nağıl dərslikləri, əyləncəli diktələr, "Musiqi qulağının gimnastikası", "Cənab Kanonun dərsləri" və bir-çox başqa şeylərdir. Bunları azərbaycan dilinə tərcümə etmək və ya bunlara oxşar vəsaitlər hazırlamaq lazımdır ki, bizim uşaqlar və müəllimlər də müasir metodikalardan bəhrələnə bilsin.

Beləliklə, solfecio müasir mərhələdə sənət və yaradıcılıq vasitəsilə təhsil və təlimin praktiki yoludur. Bu, ilk növbədə, insanın inkişafına, bütövlüyünü qorumağa, özü və dünya ilə əlaqəni yaxşılaşdırmağa yönəldilmişdir.

Təbii ki, kiçik bir məqalə çərçivəsində qaldırılan məsələləri istənilən təfərrüatla nəzərdən keçirmək mümkün deyil. Eyni zamanda, fikrimizcə, müasir musiqi təhsili sistemində solfecionun tədrisi məsələsinin kifayət qədər ciddi olduğunu və onun həllinin təcili tələb edildiyini göstərə bilmişik. Bunun üçün isə metodistlərin, ifaçılıq və musiqişünaslıq müəllimlərinin birgə əlaqələndirilmiş səylərini tələb edilir.

## ƏDƏBİYYAT

1. Bağırov N. Solfecio. Bakı: “Maarif”, 1987, 268 s.
2. İsmayılova K. Solfecio fənninin tədrisi metodikası. Bakı: ADPU, 2009, 192 s.
3. Булаева О., Геталова О. Учусь импровизировать и сочинять. / 5-я тетрадь. Спб.: «Композитор», 2012, 50 с.
4. Как преподавать сольфеджио в 21 веке. Сост. О. Берак, М. Карасева. Москва: «Классика-XXI», 2006, 220 с.
5. Шатковский Г.И. Развитие музыкального слуха. М.: «Амрита», 2018, 248 с.
6. Уроки музыки Белецкого. http://chromoryad.com/

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.07.2022**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.10.2022**
**Məqalənin çapa qəbul olunma tarixi: 10.11.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**